# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 48** **Bakı şəhəri, 14 fevral 2023-cü il**

***“Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı və məcburi nişanlama ilə nişanlanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi, aksiz markalarının və məcburi nişanlamanın hazırlanması üçün sifarişin verilməsi, onların tətbiqi, satışı və uçotunun aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında***

“Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 650-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1384-IVQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 7 dekabr tarixli 700 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1945 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı və məcburi nişanlama ilə nişanlanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi, aksiz markalarının və məcburi nişanla-manın hazırlanması üçün sifarişin verilməsi, onların tətbiqi, satışı və uçotunun aparılması Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**2.** “Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı və məcburi nişanlama ilə nişanlanmalı olan malların Siyahısı” təsdiq edilsin (əlavə olunur).

**3.** Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Qaydalar (bundan sonra – Qaydalar) qüvvəyə mindiyi tarixədək fəaliyyət göstərən, tütün məmulatlarını Azərbaycan Respublikasına idxal edən və ya ölkə ərazisində istehsal edən subyektlər Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (bundan sonra – Dövlət Vergi Xidməti) Vahid Dövlət Avtomatlaşdırılmış Məlumat “Track and Trace” (“Təqib və İzləmə”) Sisteminə qoşulmaq barədə Dövlət Vergi Xidmətinin göndərdiyi bildirişi aldıqdan sonra 1 (bir) ay müddətində aşağıdakı qaydada fəaliyyət göstərirlər:

3.1. tütün məmulatlarına Qaydalar qüvvəyə minənədək tətbiq edilən aksiz markası ilə yanaşı, Qaydaların tələblərinə uyğun olaraq məcburi nişanlama da tətbiq edilir;

3.2. Dövlət Vergi Xidməti tərəfindən bu Qərarın 4-cü hissəsinin tələbləri nəzərə alınmaqla, bu Qərarın 3-cü hissəsinin birinci abzasında nəzərdə tutulmuş müddətin başa çatması barədə Sistem vasitəsilə bildiriş göndərildikdən sonra tütün məmulatlarına markalar yalnız Qaydaların 7.4-cü, 7.5-ci və 7.8-ci bəndlərinə uyğun olaraq tətbiq edilir və qeyd olunan müddət ərzində sifarişçilər tütün məmulatlarına tətbiq edilmək üçün alınmış məcburi nişanlamaya görə “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 20-4.2-ci maddəsinə uyğun olaraq dövlət rüsumundan azad olunurlar.

**4.** Bu Qərarın 3-cü hissəsində nəzərdə tutulmuş müddət ərzində yarana biləcək qüsurların aradan qaldırılması məqsədilə Dövlət Vergi Xidməti həmin müddəti hər dəfə 1 (bir) aydan çox olmamaq şərtilə 5 (beş) dəfə uzada bilər.

**5.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun olaraq edilə bilər.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

Xalq qəzeti .- 2023.- 21 fevral.- S.2.